# Kənd təsərrüfatının davamlı inkişafı ərzaq təhlükəsizliyini möhkəmləndirir

## *Azərbaycan rəhbərliyinin ciddi nəzarəti ilə icra edilən Dövlət proqramları aqrar sahənin davamlı innovativ inkişafını və güclü ixrac potensialının yaranmasını təmin edir*

**Aparılan düşünülmüş siyasət sayəsində müstəqilliyini yeni bərpa etmiş Azərbaycan öz iqtisadiyyatını dirçəltmiş və çoxşaxəliliyinə nail olmuşdur. Bu sosial-iqtisadi yüksəlişin təməlində dövrün çağırışlarına cavab verən islahatlar və innovativ layihələrin reallaşması, son nəticədə rəqabətədavamlı, dayanıqlı iqtisadiyyat dayanır. Dövlətin iqtisadi siyasətində ölkə qüdrətinin davamlı surətdə artırılması üçün bütün sahələrdə mövcud potensialın aşkara çıxarılması və elmi-praktiki baxımdan həyata keçirilərək dövriyyəyə cəlb edilməsi əsas istiqamətlərdən biridir. Hazırda zəruri iqtisadi sahələr prioritet elan edilmiş və hazırlanan müvafiq Dövlət proqramları dəqiq mexanizmlərlə çox böyük uğurla reallaşdırılır. Təsadüfi deyil ki, son 12 ildə milli iqtisadiyyatda 3,4 dəfə, o cümlədən qeyri-neft sektorunda 2,6 dəfə artım baş verib. Bu sürətli irəliləyiş sayəsində Azərbaycan Cənubi Qafqaz regionu iqtisadiyyatının 75 faizinə sahibdir.**

Davamlı innovativ inkişaf edən real iqtisadiyyatın prioritet sahələrindən biri də kənd təsərrüfatıdır. Müasir dünyamızda Yer kürəsi sakinlərinin sürətlə artması, siyasi, iqtisadi, sosial kataklizmlər, dini, milli toqquşmalar, müharibələr fonunda ilbəil ərzaq təhlükəsizliyi getdikcə daha çox ölkələrin siyasətində mühüm istiqamətlərdən, təcili həllini tələb edən problemlərdən birini təşkil etməkdədir. Bu gərgin prosesə rəğmən ərzağın müvafiq səviyyədə istehsalı müşayiət olunmur. Hazırda dünyada milyonlarla insan aclıq çəkir. Bir tərəfdən də planetimizin müxtəlif yerlərində təbii fəlakətlərin gətirdiyi faciələr və dağıntılar, zaman-zaman baş verən iqtisadi tənəzzül bu vəziyyəti daha da ağırlaşdırır. Bu prosesləri əvvəlcədən görən, böyük məsuliyyətlə yanaşan və şəraitə nəzərən strateji inkişafı proqnozlaşdıran Azərbaycan rəhbərliyi qeyri-neft sektorunun kənd təsərrüfatı sahəsinin inkişafını da prioritet elan edərək, tərəqqisi üçün bütün siyasi, hüquqi və digər addımları operativ atır. Dövlət nəinki zəruri məhsullarla özümüzü təmin etmək, həm də ixrac potensialı yaratmaq üçün bütün tədbirləri görür.

Azərbaycan nəqliyyat, ərzaq və enerji təhlükəsizliyini təmin etmiş və öz siyasi və iqtisadi müstəqilliyinə nail olmuşdur. Lakin müasir qloballaşma prosesi daim irəli getməyi, iqtisadiyyatda, o cümlədən aqrar sahədə də elmi və texnoloji tərəqqini tətbiq etməklə dayanıqlı, sabit inkişaf etməyi tələb edir. Azərbaycanda bazar iqtisadiyyatı bərqərar olub. Aqrar islahat keçirilərək torpaq özəlləşdirilib. Fermerlərə verilən hüquqi, siyasi və maddi dəstək, kənd təsərrüfatının davamlı inkişafına lazımi şərait bu sahədə sürətli irəliləyiş üçün güclü təməl yaradıb. Dövlət başçısı İlham Əliyev aqrar sahənin inkişafı və əsas hədəf barədə deyib: “Ərzaq təhlükəsizliyi ilə bağlı institusional islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması da çox önəmlidir. Bizim ixrac potensialımızın artırılması da gündəlikdə duran məsələlərdən biridir. Çünki əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün əsas ərzaq məhsullarımızla tam təmin edəcəyik. Beləliklə, ixrac üçün bizim yeni məhsullarımız olacaqdır”.

Beləliklə, Azərbaycan rəhbərliyinin ciddi nəzarəti ilə reallaşdırılan dövlət proqramları bu gün aqrar sahənin də davamlı innovativ inkişafını təmin edən amillərdən biridir. İnkişaf strategiyasından irəli gələn vəzifələrin səmərəli yerinə yetirilməsi çox böyük uğurlara imza atılmasına imkan yaradıb. Artıq Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edib və yeni mərhələyə qədəm qoyub, onun daha da möhkəmləndirilməsi və ixrac potensialının yaradılması prosesinə başlayıb. Belə ki, 2015-ci ilin yanvar-avqust ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4131,4 milyon manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə onun sabit qiymətlərlə dəyəri 7,4 faiz, o cümlədən heyvandarlıq məhsulları 2,2 faiz, bitkiçilik məhsulları üzrə isə 12,3 faiz artmışdır.

Göstəricilərdən göründüyü kimi, kənd təsərrüfatının davamlı və yüksək templi inkişafı üçün dövlətin siyasi, hüquqi və maddi dəstəyi öz bəhrəsini verir.

Hər bir dövlətin iqtisadiyyatının inkişafında orta təbəqə sayılan kiçik və orta sahibkarlığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Dövlət rəhbərliyinin həmin istiqamətdə siyasəti düşünülmüşdür, konkret siyasi, iqtisadi, hüquqi mexanizmlər dəqiq işləyir, bütün maneələr davamlı surətdə aradan qaldırılır, bunun üçün ən ali səviyyədə göstərişlər verilir, tədbirlər görülür. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyinin verilməsi işi də davam etdirilir. Belə ki, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrası ilə bağlı bu ilin altı ayında müvafiq istiqamətə 25 milyon manat vəsait yönəldilib. Təsadüfi deyil ki, Azərbaycan regionlarında mühüm iqtisadi layihələr həyata keçirilməkdədir və hazırda müxtəlif təyinatlı istehsal və xidmət sahələri inşa olunur. Bu işlərdə Sahibkarlığa Kömək Milli Fondu da yaxından iştirak edir.

Görülən tədbirlər öz səmərəsini kənd təsərrüfatı məhsullarının ixracında da göstərməkdədir. Məsələn, 2015-ci ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən ixracatda mühüm növ məhsullardan təzə tərəvəz 15,4 faiz, təzə meyvə, 23,3 faiz, pambıq lifi 8,4 dəfə, pambıq parça ipliyi 9,3 faiz artıb və s.

Ölkəmizin əsas insan resursları və iqtisadi potensialı regionlarımızda yerləşir. Dövlətin bu potensialdan səmərəli istifadə siyasəti bütün uğurların əsas səbəblərindəndir. Təsadüfi deyil ki, sahibkarların böyük hissəsi də məhz aqrar sektordadır. Dövlətin kənd təsərrüfatı məhsulları istehsalçılarına verdiyi dəstək artıq öz bəhrəsini verib. Hazırda ənənəvi və yeni bazarlara rəqabətədavamlı məhsullarla çıxmaq üçün daha da ciddi addımlar atılır və sahibkarlar da bu işdə dövlət tərəfindən ciddi dəstəklənir. Azərbaycan Prezidenti ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və ixrac potensialının yaradılmasını, beynəlxalq bazarlarda möhkəmlənməyi qarşıya bir vəzifə olaraq qoyub: “Bütün lazımi tədbirlər görülüb - struktur islahatları aparılıb, müvafiq sərəncamlar imzalanıb. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik. Biz buna yaxınlaşırıq. Hər il “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasını müzakirə edərək bu barədə xüsusi danışırıq. Bununla bərabər, biz ixrac bazarlarına çıxışı da əldə edirik. Çünki dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, əgər bizdə ixrac bazarlarına böyük çıxış olmasa, gələcəkdə bu, kənd təsərrüfatının inkişafını məhdudlaşdıra bilər. Çünki biz öz daxili tələbatımızı ödəyəndən sonra əgər ixrac bazarlarına çıxmasaq, artıq məhsul istehsal edə bilməyəcəyik. İxrac bazarlarına çıxmaq üçün, ilk növbədə məhsul rəqabətqabiliyyətli olmalıdır. Digər tərəfdən, o bazarlarda bizim logistik imkanlarımız olmalıdır. Eyni zamanda, onu da deməliyəm ki, dost ölkələrlə əlaqələr yüksək səviyyədə olmalıdır. Çünki indi ölkələr öz daxili bazarlarını qoruyur və demək olar ki, inkişafda olan ölkələr daxili istehsalla ciddi məşğuldurlar. Ona görə, gələcəkdə bazarlara çıxış problemi ola bilər. Biz buna hazır olmalıyıq”.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**